

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 161 (24.048)

*26 avqust 2022-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Koreya Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Busan şəhərinin “Ekspo 2030” Ümumdünya Sərgisinə ev sahibliyinə namizədliyini dəstək üzrə Xüsusi Komitənin sədri So Byoq Sunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında siyasi və iqtisadi sahələrdə yaxşı təmasların mövcud olduğunu bildirərək Koreya Parlamenti sədrinin Azərbaycana səfərini məmnunluqla xatırlayıb və So Byoq Sunun səfərinin də əməkdaşlığın möhkəmləndirilməsi işinə verdiyi töhfəni qeyd edib.

Sonra So Byoq Sun Koreya Prezidentinin məktubunu dövlətimizin başçısına təqdim edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Bosniya və Herseqovinanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Adis Alagiçin,Tailand Krallığının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Apirat Suqondhabhiromun, Dominikan Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Elvis Antonio Alam Loranın etimadnamələrini qəbul edib.

*Təhsil millətin gələcəyidir*

# Təhsil sahəsində qazanılan uğurlar ölkəmizin gələcəyinə xidmət edir

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin* ***“İnsan təhsilin əsasını orta məktəbdə alır. Ona görə də bütün təhsil sistemində orta məktəb xüsusi yer tutmalıdır”*** *sözləri ilə ümumi təhsil sistemində ciddi islahatlar aparılmasının vacibliyinə diqqəti çəkmişdi. Ölkəmizdə latın qrafikalı əlifbaya keçid görkəmli dövlət xadimi Heydər Əliyevin bu islahatlar yönündə atdığı ən böyük addımlardan biri idi. Təhsilə diqqətin daha bir nümunəsi kimi xüsusi istedadı olan uşaqlara qayğı göstərilməsi, ali məktəblərə qəbul imtahanlarında ən yüksək bal toplayan abituriyentlərə Prezident təqaüdünün verilməsi və digər məqsədyönlü tədbirlər gənclərin əzmlə çalışması, daha mükəmməl bilik və bacarıqlara yiyələnməsi üçün bir stimul oldu. Bir sözlə, ümummilli liderin təhsil sahəsinin inkişafındakı xidmətləri xalqımızda milli-mənəvi dəyərlərə qayıdışın əsasını qoydu.*

Əsası ulu öndər tərəfindən qoyulan təhsil strategiyası bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının bütün sahələrlə yanaşı, təhsil sahəsinə göstərdiyi diqqət və qayğı nəticəsində icra edilən Dövlət proqramları təhsilimizin keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymasına və yüksək nəticələrin əldə olunmasına xidmət edir. Ölkə rəhbərinin müvafiq göstərişləri əsasında atılan addımlar, öz bəhrələrini verən Dövlət proqramları təhsil sistemində yeni inkişaf meyillərinin meydana çıxmasını, yüksək nəticələrin qazanılmasını şərtləndirir.

Naxçıvan Muxtar Respublikasında da təhsilin inkişafı və bu sahədə həyata keçirilən islahatlar innovativ inkişafa və güclü iqtisadi potensiala əsaslanır. İqtisadiyyatın dinamik inkişaf səviyyəsi muxtar respublikada genişmiqyaslı layihələri reallaşdırmağa, o cümlədən təhsil infrastrukturunu yeniləşdirməyə tam imkan verir. Təhsilin keyfiyyət göstəricilərinin yaxşılaşmasını şərtləndirən ən mühüm amillər təhsil prosesinin inkişaf etdirilməsi, müasir standartlara cavab verən yeni məktəblərin tikilməsi, bu yolla təhsil ocaqlarında kontingent sıxlığının aradan qaldırılmasıdır. Son illərdə muxtar respublikada tikilən və yenidən qurulan 200-dən çox təhsil müəssisəsi müasir standartlar səviyyəsində şagirdlərin, müəllimlərin istifadəsindədir. Görülən tədbirlər təhsilin müasir inkişafına, eyni zamanda yüksək intellektli kadr potensialının hazırlanmasına da şərait yaradır.

Ümummilli lider Heydər Əliyev deyirdi ki, şagird və tələbələrin dövrün tələbləri səviyyəsində formalaşması üçün təlimin keyfiyyəti, yüksək savad, dərin bilik verilməsi yeganə şərt deyil. Bu məsələyə xüsusi diqqət yetirən dahi şəxsiyyət digər mühüm amili də təhsil alanların mənəvi kamilliyində, əqidə saflığında görürdü. Başqa sözlə, Heydər Əliyev təlimində təhsillə tərbiyənin, mükəmməl biliklə yüksək mənəviyyatın vəhdəti son dərəcə mühüm prinsip kimi əsaslandırılmışdır. Təhsil ocaqlarının tərbiyəedici funksiyasına xüsusi diqqət yetirən ümummilli liderin aşağıdakı sözləri də bu ali həqiqətin ifadəsidir: ***“Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır”.***

Xüsusi qeyd olunmalıdır ki, müəllifi ulu öndər Heydər Əliyev olan dövlət gənclər siyasəti yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin ictimai-siyasi həyatında fəal iştirakını təmin edir. Gənclərə verilən dəstək davamlı və dayanıqlı inkişafa və gələcəyə qoyulan sərmayədir. Gənclərimizin təhsili ilə yanaşı, milli ruhda tərbiyəsi, onlarda daim Vətənə sevginin olması çox mühüm məsələdir. Əslində, elə milli təhsilimizin ali məqsədi də milli ruhlu kamil vətəndaşlar yetişdirməkdir. Sözdə bu, aydın, konkret iş proqramıdır, amma əməldə, pedaqoji təcrübədə tədris prosesinin bütün üsul və formalarını əhatə edən həm yaxın, həm də son hədəfdir. Ona görə təhsil müəssisələrində keçirilən hər bir dərsin həm məzmununda, həm formasında, həm də mütəşəkkil xüsusiyyətlərində, hər şeydən əvvəl, milli ruh, milli mühit öz əksini tapmalıdır. Milli ruh özünüdərkin, vətənpərvərliyin, qədirbilənliyin, sədaqətin, xeyirxahlığın, humanizmin, iradənin və digər mənəvi keyfiyyətlərin nəticəsi kimi formalaşır. Gənclərimiz milli kökə nə qədər bağlı olsalar, özlərini bir o qədər güclü, sarsılmaz hiss edəcək, eyni zamanda Vətən üçün faydalı olmağa cəhd göstərəcəklər. Prezident cənab İlham Əliyevin də dediyi kimi: ***“Azərbaycan gənci Azərbaycan dəyərləri, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır, Vətənə bağlı olmalıdır, Azərbaycan dəyərlərini hər şeydən üstün tutmalıdır, öz tarixini, ədəbiyyatını, ana dilini mükəmməl bilməlidir, fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır. Ona görə bu məsələyə çox böyük diqqət verilməlidir. Mən gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə əlaqədar gedən prosesləri müsbət qiymətləndirirəm. Mən görürəm ki, yeni, müasir nəsil yetişir. Müstəqillik dövründə doğulmuş və ya formalaşmış nəsil yetişir. Müasir, vətənpərvər və mənəvi cəhətdən sağlam yeni nəsil ölkəmizin gələcəyini müəyyən edəcək. Ölkəmizin müstəqilliyi, firavanlığı onlardan asılı olacaq. Onlar milli maraqları bizim qədər, heç nəyə baxmadan müdafiə etməlidir”.***

Sözsüz ki, bu vacib məsələnin həllində müəllimlərin də üzərinə çox mühüm vəzifələr düşür. Onlar da daşıdıqları şərəfli bir peşənin məsuliyyətini dərindən dərk edir, dövlətimizin, dövlətçiliyimizin inkişafında, müstəqilliyimizin qorunmasında fəallıq göstərməyi özünün vətəndaşlıq borcuna çevirəcək vətəndaşlar yetişdirməyə çalışırlar. Ona görə də ölkəmizdə, eləcə də muxtar respublikamızda müəllim peşəsinə maraq getdikcə artır. Cəmiyyətin ziyalısı kimi eldə-obada müəllimin nüfuzu əziz tutulur, sözü eşidilir. Son illər dövlətimizin həyata keçirdiyi tədbirlər bu hörməti daha da yüksəldir. Diaqnostik qiymətləndirmələrdən uğurla keçən müəllimlərin layiqli həyatının təmin olunması üçün əməkhaqları artırılır, onlara əlavə stimul yaradılır. Artıq müəllim sosial təminat etibarilə kifayət qədər yaxşı yaşayan, heç bir maddi sıxıntısı olmayan peşə sahibinə çevrilib. Son illər müəllim peşəsini seçən gənclərimizin sayının artması, ali məktəblərə qəbul zamanı yüksək bal toplamış gənclərin məhz müəllim peşəsinə üstünlük verməsi də bu sənətin cəmiyyətdə artan nüfuzunun göstəricisidir. Eyni zamanda burada dövlətimizin son illər inşa etdirdiyi müasir, abad, işıqlı, zəngin maddi-texniki bazaya malik məktəblərdə çalışmaq, təhsildə aparılan inkişaf proseslərinin iştirakçısı olmaq arzusunun da təsiri böyükdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin də dediyi kimi: ***“Muxtar respublikamızda müəllimlərin fəaliyyətinin stimullaşdırılması üçün onların əməyinin qiymətləndirilməsi, sosial həyat şəraitinin yaxşılaşdırılması təhsilin inkişafına kompleks yanaşmanın təzahürüdür”.***










2019-cu ildə istifadəyə verilən Naxçıvan şəhər 5 nömrəli tam orta məktəb də müasir maddi-texniki bazaya malik məktəblər sırasına qoşulub. Yaradılan müasir tədris şəraiti təhsilin yüksək səviyyədə təşkilinə geniş imkanlar açıb. Ötən illərdə məktəbi bitirən məzunlar yüksək bal toplayaraq ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olunublar. Məktəbin 4 mərtəbəli binası 1140 şagird yerlikdir. Təhsil ocağında 5-i elektron lövhəli olmaqla, 60 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 3 kompüter, 2 şahmat, 2 müəllimlər otaqları, kitabxana, bufet və idman zalı vardır. Fizika, kimya və biologiya laboratoriyaları dərs proqramına uyğun təcrübə avadanlıqları ilə təchiz edilib. Eyni zamanda fizika, biologiya kabinələri həm də elektron lövhə ilə təmin olunub. Onu da qeyd etmək istərdim ki, muxtar respublikamızın digər təhsil müəssisələrində olduğu kimi, bizim məktəbdə də STEAM kabinəsi yaradılıb və şagirdlərin istifadəsinə verilib. Şagirdlərimiz respublika və beynəlxalq fənn olimpiadalarında, idman yarışlarında, eləcə də müasir təhsil metodu olan STEAM-a böyük maraq göstərir və muxtar respublikada təşkil olunan ilk “STEAM təhsil festivalı”nda layihələrlə iştirak ediblər.

Muxtar respublikamızda istedadlı uşaq və gənclərin üzə çıxarılmasına da xüsusi diqqət yetirilir, bu istiqamətdə dövlət səviyyəsində məqsədyönlü tədbirlər həyata keçirilir. Xüsusi yaradıcılıq potensialı və qabiliyyəti

*Ardı 2-ci səhifədə*

ilə seçilən uşaqlar daim diqqət mərkəzində saxlanılır, adları gənc istedadların “Qızıl kitabı”na yazılaraq onlara xüsusi təqaüdlər verilir. Biz məktəb kollektivi olaraq fəxr edirik ki, məktəbimizin iki şagirdi Nazlı Hümbətovanın və Röya Abdullayevanın adları Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı sərəncamlara əsasən “Qızıl kitab”a salınmışdır. Bu meyar, təbii ki, muxtar respublikada gənc istedadlara göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Təhsil gələcəyin təməlidir. Sabahını düşünərək qarşıya qoyduğu hədəflərə doğru irəliləyən insan nə qədər əzmkar və nikbin təsir bağışlayırsa, gələcəyi üçün bu gündən daha etibarlı, möhkəm təməl formalaşdıran, vətəndaşları üçün layiqli həyat tərzi qurmağa çalışan dövlət də bir o qədər qüdrətli görünür. Məktəbin açılışında Ali Məclisin Sədri demişdir: ***“Təhsilin əsas məqsədi gənclərə düzgün qərarlar qəbul etmək sənətini öyrətməkdir. Düzgün qərarlar qəbul etməklə gənclər şəxsiyyətə, ölkələr isə qüdrətli dövlətə çevrilir”.***

Qeyd etmək vacibdir ki, ümummilli lider hələ Azərbaycana birinci rəhbərliyi dövründə elmin inkişafına böyük önəm verirdi. Ötən əsrin 70-80-ci illərində ulu öndərin rəhbərliyi altında təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və həmin şəbəkənin zəngin maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənardakı ali məktəblərə gənclərin göndərilməsi, hərbi kadrların yetişdirilməsi, elmi-tədqiqat institutlarında elmin inkişafının təmin olunması üçün zəruri intellektual zəmin yaratmışdı. Milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılması məqsədilə hər il yüzlərlə azərbaycanlı gəncin təhsil almaq üçün keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi təmin edilmişdi. Bu gün həmin kadrların böyük əksəriyyəti müstəqil Azərbaycanın çiçəklənməsinə öz dəyərli töhfələrini verir.



Muxtar respublikada təhsilə göstərilən qayğının davamlı xarakter alması gənclərimizin xarici ölkələrdə təhsil almalarına da geniş imkanlar açır. Bu gün yüzlərlə gənc dünyanın inkişaf etmiş ölkələrinin universitetlərində təhsil alır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Gənclərə verilən dəstək davamlı və dayanıqlı inkişafa və gələcəyə qoyulan sərmayədir. Zəngin təhsil ənənələrinə, güclü intellektual və kadr potensialına malik muxtar respublikamızda bu ənənələr yeni dövrün tələbləri nəzərə alınmaqla inkişaf etdirilir. Yaradılmış şərait və dövlət qayğısı bilikli, vətənpərvər, milli düşüncəyə malik gənclərin hazırlanmasına xidmət etməlidir”.***

Hər il yüksək bal toplayan məzunlarla Ali Məclis Sədrinin görüşü də artıq ənənəyə çevrilmişdir. Bu isə muxtar respublikada təhsilə göstərilən böyük qayğı kimi gənclərin də məsuliyyət hissini artırır, onları ölkəmizin inkişafı naminə təhsildə böyük uğurlar qazanmağa səsləyir. Ümummilli lider Heydər



Əliyev harada olmasından və yaşamasından asılı olmayaraq gənclərimizin layiqli, bilikli, təhsilli vətəndaş kimi yetişmələrinin, daim əsl azərbaycanlı mövqeyində dayanmalarının vacibliyini öz çıxışlarında dönə-dönə vurğulayırdı: ***“Hər bir millətin, hər bir ölkənin gələcəyi gənclərdir. Biz gənclərimizi nə qədər yüksək təhsilli etsək, onların müəyyən ixtisaslara mükəmməl yiyələnməsinə şərait yarada bilsək, müstəqil Azərbaycanın gələcəyi və demək, müstəqil Azərbaycanın iqtisadiyyatının inkişafı, elminin inkişafı, təhsilinin inkişafı, insanların rifah halı o qədər də yaxşı olacaqdır…”***

Bu gün ölkəmizdə təhsilin inkişafı istiqamətində görülən işlər bir daha əmin olmağa əsas verir ki, müasir Azərbaycan təhsili özünün zəngin mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq daha da inkişaf etməkdə, təhsil islahatlarının memarı və qurucusu olan xalqımızın ümummilli lideri Heydər Əliyevin müdrik tövsiyələri bu yolda daim sönməz məşəl rolunu oynamaqdadır. Ölkəmizdə olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da bu yüksək inkişaf Heydər Əliyev yolunun möhtəşəm təntənəsidir. Bu yol Azərbaycanın dünəni kimi, bu gününün də böyük reallıqları və daha parlaq sabahları deməkdir. Bütün bunlar Azərbaycanın tərkibində hərtərəfli surətdə inkişaf etdirilmiş, əsaslı şəkildə yenidən qurulmuş, düşmən sərhədində alınmaz qalaya çevrilmiş müasir Naxçıvanın bundan sonra da böyük addımlarla irəliləyib inkişaf edəcəyinin real təminatıdır. Bu isə torpağını və məmləkətini sevən hər bir Azərbaycan vətəndaşının böyük arzusu və inamıdır.

*Əminik ki, təhsilimizin ən böyük hamisi ümummilli liderimiz Heydər Əliyevin müdrik tövsiyələrini əldə rəhbər tutaraq müasir Azərbaycan təhsili özünün zəngin ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq təhsilin quruculuğu yolunda daha böyük uğurlara imza atacaqdır.*

**Esmira HƏSƏNOVA**
***Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

***26 avqust Beynəlxalq Azərbaycan Muğamı Günüdür***

# Muğam sənəti Azərbaycan xalqının milli sərvətidir

*Azərbaycan xalqının qədim və zəngin tarixinin, mədəni irsinin mühüm bir qolunu da muğam sənəti təşkil edir. Millətin milli özünüdərki, həyat tərzi və soykökünün göstəricisi olan bu zəngin sənət növü xalqımızın dünya mədəni irsinə bəxş etdiyi ən böyük xəzinədir.*

Azərbaycan muğamı xalqımızın ruhunu əsrlərboyu yaşatmış, bu gün də yaşatmaqdadır. Muğam sənətimizdə xalqımızın təfəkkürü və düşüncə tərzi öz əksini tapır. Məhəbbət və nifrət, xeyir və şər, hicran və vüsal, mübarizə və döyüş, inam və qələbə üzərində köklənən muğamlar məzmun və fəlsəfi zənginlik yaradaraq hər bir azərbaycanlının mənəviyyatına daxil olmuşdur. Muğam sənətinin zənginliyi, ucalığı, əbədiyaşarlığı da bu dəyərləri əsrlərdən-əsrlərə daşımasındadır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bütün bunları nəzərə alaraq deyirdi: ***“Bizim xalqımızın böyük musiqi mədəniyyəti tarixi var. Azərbaycan xalqının qədim dövrlərdən indiyə qədər yaşayan xalq musiqisi, xalq mahnıları, Azərbaycan muğamları milli sərvətimizdir”.***

Azərbaycan muğamının ən mühüm cəhətlərindən biri də musiqi ilə qüdrətli sözün, yəni haqiqi poeziyanın vəhdətdə olmasıdır. Bu qüdrətli musiqini insana, dinləyicilərə çatdırmaq üçün həm də qüdrətli poeziya nümunəsinə ehtiyac duyulur. Muğam ifaçılığının yayılmasında və onun professional şəkil almasında XIX əsrin 20-ci illərindən XX əsrin əvvəllərinə qədər Azərbaycan şəhərlərində mövcud olmuş ədəbi və musiqi məclisləri böyük rol oynamışdır. Şuşa, Ordubad, Bakı, Şamaxı, Lənkəran, Gəncə kimi şəhərlərdə fəaliyyət göstərən belə məclislərdə şairlər, ədiblər, musiqiçilər, ziyalılar, klassik poeziyamızın və musiqimizin sərrafları, biliciləri toplaşır, muğamları dinləyir, musiqinin və şeirin incə ifası ətrafında müzakirələr aparırdılar. Bu məclislər Azərbaycan muğam sənətinin formalaşmasına, onun gələcək inkişafına güclü təsir göstərmişdir. Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Molla Pənah Vaqif, Seyid Əzim Şirvani, Xurşidbanu Natəvan, Əliağa Vahid və başqa şairlərimizin qəzəlləri üstündə oxunan “Rast”, “Şur”, “Segah”, “Çahargah”, “Şüştər”, “Humayun”, eləcə də “Şahnaz”, “Rahab”, “Heyratı”, “Arazbarı”, “Simayi-şəms”, “Mənsuriyyə” və başqa muğamlar tükənməz söz-sənət xəzinəsi kimi milli musiqi mədəniyyətimizi zənginləşdirmişdir.

Əsrlərdən bəri zəngin mədəni ənənələri ilə şöhrət qazanmış sənətkarlar – şair və yazıçılar, musiqiçilər yurdu kimi tanınmış, Qarabağın tacı və Azərbaycan mədəniyyətinin paytaxtı sayılan Şuşa şəhəri Azərbaycan musiqi mədəniyyətinin, eləcə də muğam sənətinin yaşadılması və inkişafındakı roluna görə “Şərqin konservatoriyası” adlandırılmışdır. Hələ XIX əsrin əvvəllərindən etibarən Qarabağda muğam ifaçılığı məktəbinin əsası qoyulmuş, sonrakı dövrlərdə Seyid Şuşinski, Məcid Behbudov, Məşədi Cəmil Əmirov, Zülfü Adıgözəlov, İslam Abdullayev, Xan Şuşinski kimi görkəmli muğam ifaçılarının, XX əsrin ikinci yarısında isə Sara Qədimova, Arif Babayev kimi xanəndələrin, Qurban Pirimov, Məşədi Zeynal kimi tarzənlərin bu sənət məktəbinin inkişafı və yaşadılmasında böyük rolu olmuşdur.

Azərbaycan muğamının mükəmməl elmi əsasını XX əsrdə dahi bəstəkar Üzeyir Hacıbəyli qoymuşdur. Bu dövrdə muğam Azərbaycan bəstəkarlarının, şairlərinin ilham mənbəyi olmaqla qiymətli sənət əsərlərinin meydana gəlməsinə öz təsirini göstərmişdir. Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Soltan Hacıbəyov, Cahangir Cahangirov, Süleyman Ələsgərov, Vasif Adıgözəlov və başqaları muğam sənətinə əsaslanaraq qiymətli sənət nümunələri yaratmışlar. Azərbaycan musiqisində simfonik muğamların yaranması muğam sənətinin rəngarəngliyini, onun ifadə imkanlarının geniş olduğunu göstərməkdədir. Fikrət Əmirovun “Şur”, “Gülüstani-bayatı-şiraz”, Niyazinin “Rast”, Süleyman Ələsgərovun “Bayatı-şiraz” simfonik muğamları, Vasif Adıgözəlovun “Qarabağ şikəstəsi” oratoriyası, Vaqif Mustafazadənin muğam əsasında ifa etdiyi əsərlər, bəstələdiyi musiqilər dünyanın müxtəlif ölkələrində dinləyicilərin qəlbini fəth etməkdədir. Bu musiqi əsərləri arasında muğam operası, simfonik və xor muğamları, sonata-muğam, caz-muğam kimi sənət nümunələrinə rast gəlinir ki, bunlar da muğam ənənələrinin yaşadılmasının gözəl ifadəsidir.



XX əsrin 70-ci illərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə milli dəyərlərimizin yaşadılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində muğam sənətimiz də yeni inkişaf mərhələsinə qədəm qoymuş, muğam ifaçıları və bu sənəti yaşadanlar qayğı ilə əhatə olunmuşlar. Musiqi mədəniyyəti, o cümlədən muğam sənəti tariximizin ötən əsrin 70-ci illərindən bəri olan inkişaf dövrü ulu öndərin adı ilə bağlıdır. XX əsrin 80-ci illərinin ortalarında Azərbaycan muğamının sədaları respublikamızın hüdudlarını aşaraq xarici ölkələrdə də geniş şəkildə səslənməyə başlamışdır. Məhz bu illərdə muğam sənətinə marağın daha da artması və bir sənət kimi muğama baxışların formalaşması üçün yeni şərait yaranmağa başladı. 1971-ci ildə YUNESKO-nun 50 albomdan ibarət olan “Dünya ənənəvi musiqisinin antologiyası” seriyasına “Azərbaycan musiqisi plastinkası” da daxil edilmiş, 1975-ci ildə Azərbaycan muğamları “Musiqi mənbələri” seriyasında buraxılmışdır.

Müstəqillik illərində də Azərbaycan musiqisinin və muğamının inkişafında ümummilli lider Heydər Əliyevin müstəsna rolu olmuşdur. Ulu öndərin 2003-cü il 16 may tarixdə imzaladığı “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununa əsasən muğam-dəsgahlar, zərb muğamlar, təsnif və rənglər də qorunan folklor nümunələri siyahısına salınmışdır. Həmçinin müxtəlif festivallarda, beynəlxalq müsabiqələrdə, dünyanın mötəbər mədəniyyət və musiqi tədbirlərində Azərbaycan muğamı əzəmətlə səslənmişdir. Bütün bunlar sonrakı illərdə də zəngin muğam sənətimizin inkişafı və tanıdılmasında həlledici rol oynamışdır. 2003-cü ildə Azərbaycan muğamı YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin şah əsəri elan olunmuş, 2008-ci ildə Azərbaycan muğamları YUNESKO-nun “Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahısı”na daxil edilmişdir.

Bu gün Azərbaycanda muğam sənətinə, musiqimizə dərin məhəbbət və ehtiramla



yanaşılır, bu sənətin yaşadılması və təbliğinə böyük diqqət və qayğı göstərilir. Ölkəmizdə elə bir musiqi tədbiri yoxdur ki, orada muğam sədası eşidilməsin. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə Beynəlxalq Muğam Mərkəzinin yaradılması qədim sənət incimizə göstərilən dövlət qayğısının bariz ifadəsidir. Ölkə başçısı cənab İlham Əliyev demişdir: ***“Biz əsrlərboyu bu gözəl milli sənətimizi yaşatmışıq, inkişaf etdirmişik, ancaq son illərdə muğamın Azərbaycanda inkişafına çox böyük təkan verildi. Ənənəvi muğam müsabiqələri keçirilir və Azərbaycan televiziyası ilə canlı yayımlanır. Bu müsabiqələrin çox böyük əhəmiyyəti var. Həm gənc nəsil yetişir, həm gənc istedadlar gələcəyə yol tapırlar, həm də muğamın nə qədər gözəl sənət olduğunu bütün Azərbaycan vətəndaşları görür, peyk vasitəsilə dünya da görür... Həmçinin Heydər Əliyev Fondunun təşəbbüsü ilə ölkəmizdə ənənəvi olaraq beynəlxalq muğam festivalları da keçirilir. Bu təşəbbüsün də çox böyük əhəmiyyəti var. Çünki biz bu festivalların keçirilməsi ilə bir daha göstəririk ki, muğam milli sənətimizdir və muğamın bu gün dünyada yaşaması böyük dərəcədə Azərbaycan xalqının zəhməti, istedadı hesabına mümkündür. Biz haqlı olaraq hesab edirik ki, muğamın vətəni Azərbaycandır və beynəlxalq festivalların keçirilməsi, əlbəttə, bu tezisi daha da möhkəmləndirir”.***

Muğam sənətinin qorunub saxlanması və tanıdılmasında Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən çoxşaxəli silsilə tədbirlər müstəsna rol oynayır. Son illər ölkəmizdə bir sıra irimiqyaslı layihələr həyata keçirilmiş, muğam müsabiqələri təşkil olunmuş, 24 görkəmli muğam ifaçısının səsləndirdiyi muğam parçalarından ibarət “Qarabağ xanəndələri” albomu buraxılmış, “Muğam” jurnalı, Azərbaycan, rus və ingilis dillərində ikicildlik “Muğam ensiklopediyası” nəşr edilmişdir. Muğama dair müasir texnologiyalara əsaslanan və 8 diskdən ibarət “Azərbaycan muğamı” multimedia toplusu ilk tədris vəsaiti kimi hazırlanmışdır. Azərbaycanda 2009-cu ildən Beynəlxalq Muğam Festivalına və bu festival çərçivəsində Beynəlxalq “Muğam aləmi” simpoziumunun keçirilməsinə start verilmişdir.

Naxçıvan Muxtar Respublikasında da muğam sənətinin yaşadılması istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” Sərəncamına əsasən keçirilən “Xalq yaradıcılığı günləri”ndə zəngin folklor nümunələri ilə yanaşı, muğamlarımız da ifa edilir, onun ecazkar sənət nümunəsi kimi təbliğinə böyük diqqət göstərilir. 2012-ci ilin muxtar respublikamızda “Milli dəyərlər ili” elan olunması isə muğam musiqisi sahəsində yaddaqalan tədbirlərlə əlamətdar olmuşdur. Həmin il keçirilən “Milli dəyərlərimiz – milli sərvətimiz” folklor və muğam müsabiqəsi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. 2013-cü ildə isə Azərbaycan Respublikasında keçirilən “Muğam müsabiqəsi – 2013” televiziya müsabiqəsinin bir mərhələsi Naxçıvanda keçirilmiş, müsabiqənin münsiflər heyətinin üzvləri, tanınmış muğam ustaları Naxçıvan Dövlət Universitetində olmuş və ustad dərsləri keçmişlər.

Qədim diyarımızda son illər xalq musiqimizin, muğamlarımızın nota köçürülməsi ilə bağlı görülən işlər də bu sahəyə göstərilən diqqət və qayğının ifadəsidir. Bu gün Naxçıvanda muğam sənətinin öyrənilməsi, təbliği və tədrisi sahəsində mühüm işlər həyata keçirilir. Naxçıvan Musiqi Kollecində, uşaq incəsənət, bədii sənətkarlıq və musiqi məktəblərində muğam dərsləri tədris olunur, yeniyetmə və gənc muğam ifaçıları yetişdirilir. Bundan başqa, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən muğam ustaları Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, Prezident təqaüdü və mükafatlarına layiq görülür, musiqimizi və muğamlarımızı yaşadan sənətkarlarımızın yubileyləri qeyd edilir. Həmçinin Naxçıvan Muxtar Respublikasında ilk dəfə olaraq “Muğam lektoriyası” layihəsinin həyata keçirilməsi milli musiqi xəzinəmizin incisi olan muğamlarımızın gənclər tərəfindən daha yaxşı mənimsənilməsinə və bu mədəni irsin qorunub saxlanılmasına dəyərli töhfədir.

*Azərbaycanda, eləcə də onun Naxçıvan Muxtar Respublikasında muğam sənətinin inkişafına göstərilən diqqət və qayğı bu sənətin daha da zənginləşməsinə öz töhfəsini verir. Çünki muğam yalnız dünənin və bu günün deyil, həm də gələcəyin musiqisidir. Elə buna görədir ki, sərhədləri aşan Azərbaycan muğamı bu gün bütün dünyada sevilərək dinlənilir.*

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Zərif cinsin nümayəndələri diyarımızın mədəni-ictimai həyatında fəal iştirak edir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən muxtar respublikada yerləşən turistik istirahət mərkəzlərində bayram və istirahət günləri istedadlı qadınların əl işlərindən ibarət səyyar sərgi-satışlar təşkil edilir. Qeyd edək ki, səyyar sərgi-satışların keçirilməsində məqsəd qadınların istedad və bacarıqlarının üzə çıxarılması, xalqımızın milli və ailə dəyərlərinin sənətkarlıq nümunələri vasitəsilə yaşadılması, milli və xalq tətbiqi sənət nümunələrinin təbliği, həmçinin qadınların özünüməşğulluqlarının təmin olunması və maddi rifah hallarının yaxşılaşdırılmasından ibarətdir.***

Muxtar respublikaya gələn qonaqların ən çox üz tutduqları məkanlardan olan Ağbulaq İstirahət Mərkəzi, "Xan Çinar" və "Saat Meydanı" Turistik İstirahət mərkəzləri, "Dübəndi" istirahət məkanında keçirilən səyyar sərgi-satışlar ötən istirahət günü də Batabat yaylağında təşkil olunmuşdu. Biz də həmin sərgi-satışda iştirak edərək, istedadlı qadınların və onların hazırladıqları əl əməyi, göz nuru olan sənət nümunələrinə maraq göstərən alıcıların fikirlərini öyrəndik. Sərgilənən sənətkarlıq nümunələri, o cümlədən müxtəlif yerli və təbii daşlardan hazırlanan bəzək əşyaları, toxuma, tikmə, dekorativ iş, muncuqla, gipslə, mislə, duzla hazırlanan əl işləri, taxta üzərində oyma, taxta üzərində yandırma, xalça, dekorativ, tikmə tablo, həmçinin muxtar respublikanı tərənnüm edən sulu və yağlı boya ilə işlənmiş tablolar zövq oxşayırdı. Müşahidələrimizə əsasən səyyar sərgi-satışda nümayiş olunan əl işlərinə qonaqlar tərəfindən yüksək maraq göstərilirdi, onlar öz zövqlərinə uyğun əl işlərini böyük həvəslə alırdılar. Qeyd edək ki, səyyar sərgi-satışlarda iştirak edən istedadlı qadınlar əl işlərinin hazırlanması və əhəmiyyətləri barədə qonaqlara ətraflı məlumat verir, əl işlərinin satışını isə özləri həyata keçirirlər.









Zərif və bacarıqlı əlləri ilə bir-birindən gözəl sənət nümunələri hazırlayan ***Xuraman Seyidova*** yaradıcı xanımlarımız sırasında özünəməxsus yer tutur. O deyir ki, bu işlərə həvəsi çoxdan olub. Lakin dekorativ-tətbiqi sənətlə 2 ildir ki, məşğuldur. Sərgilərə çıxarılan əl işlərinə böyük maraq olduğunu görən Xuraman xanımın bu sahəyə olan həvəsi daha da artıb. Bu stimul onu keçirilən sərgilərin daimi iştirakçısına çevirib. Xuraman xanım deyir ki, təşkilatçı qurumların nümayəndələri satışın yaxşı təşkil olunması üçün əllərindən gələni əsirgəmirlər. Belə sərgi-satışlar biz qadınlara, bir növ, maddi baxımdan kömək edir. Buradan əldə etdiyimiz qazancla ailəmizin maddi ehtiyaclarını qarşılamağa dəstək oluruq. Belə tədbirlərin keçirilməsində əməyi olan hər kəsə minnətdarlığımı bildirirəm.

Milli dəyərlərimizi özündə ehtiva edən sərgi-satışlarda fəallıq göstərən yaradıcı xanımlardan biri də ***Qumru Sadiqova***dır. Demək olar ki, onun əl işləri çox adama tanışdır. Çünki 7 ildən çoxdur ki, toxuculuq sənətinə könül verib. Onun naxış-naxış, ilmə-ilmə işlədiyi toxuculuq nümunələri ilə keçirilən sərgilərdə tanış olmuşuq. Qumru xanım, əsasən, balacalar üçün paltarlar toxuyur. Sözügedən sərgiyə çıxardığı əl işlərinin, demək olar ki, hamısı satılıb. Şahbuz şəhər sakini olan Qumru xanım qeyd etdi ki, bu sənəti anamdan öyrənmişəm. Toxuculuq sənətinin incəliklərinə tam bələd olduqdan sonra sərgilərdə iştirak etməyə başlamışam. İlk dəfə rayonda təşkil olunan Novruz şənliyində əl işlərimi sərgiyə çıxardım. O vaxtdan başlayaraq rayonda və Naxçıvan şəhərində təşkil edilən sərgilərdə mütəmadi olaraq iştirak edirəm. 6 ildir ki, sərgi-satışlardan yaxşı gəlir əldə edirəm. Sağ olsun ki, dövlətimiz istedadlı qadınların üzə çıxarılmasına və sənət adamlarına qayğı və diqqətlə yanaşır. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən dəfələrlə diplom və mükafatlara layiq görülmüşəm. Bu məndə sənətə olan həvəsi daha da artırır.

***Sədəf Xudiyeva*** 5 ildir ki, toxuma-tikmə sənəti ilə məşğuldur. O deyir ki, muxtar respublikamızda istedadlı qadınların əl işlərindən ibarət sərgi-satışların təşkili artıq ənənə halını alıb. Belə sərgi-satışların keçirilməsi biz qadınların gələcək fəaliyyətlərinə stimul verməklə yanaşı, rifah halımızın yaxşılaşmasına da böyük dəstəkdir. İstedadlı xanım, əsasən, milli geyimlər hazırlayır və dediyinə görə, bu sənət nümunəsinə alıcılar böyük maraq duyur. Sədəf xanım deyir ki, yaxın zamanlarda Ağbulaq İstirahət Mərkəzində keçirilən sərgi-satışda İran və Türkiyədən gələn turistlər iştirak edirdi. Həmin gün satışa çıxardığım sənət nümunələrindən, təsəvvür edin, bir dənə olsun, əl işim qalmadı, hamısı satıldı. Bu məni sənətə daha böyük həvəslə yanaşmağa sövq etdi. Belə sərgi-satışların təşkili biz qadınların əməyinə verilən böyük qiymətdir, bu dəyər üçün dövlətimizə minnətdaram.

Sərgi-satışda nümayiş etdirilən bir-birindən dəyərli rəsm əsərləri və əl işləri bir daha təsdiq edir ki, muxtar respublikada istedadlı qadınların yaradıcılıqlarının üzə çıxarılması və inkişaf etdirilməsi istiqamətində keçirilən məqsədyönlü tədbirlər davamlı xarakter alıb. Belə tədbirlərdə onların əsərləri geniş ictimaiyyətə təqdim olunur, həm də satılaraq qadınlarımıza müəyyən gəlir gətirir. Sərgidə nümayiş etdirilən hər bir əl işinə diqqətlə baxanda açıq-aydın görünür ki, ilmələrdə, naxışlarda, ornamentlərdə bu torpağın hər qarışının, xalqımızın mədəniyyətinin, incəsənətinin, tarixinin, etnoqrafiyasının izləri var. Buradakı əsərlərdə xanımların hər birinin fərqli bir istedada, fərqli bir əl qabiliyyətinə, incə zövq və fantaziyaya malik olduğunu duymaq çətin deyil.

Sərgidə nümayiş olunan əl işlərinə böyük maraq göstərən alıcılarla da söhbət edib, onların fikirlərini öyrəndik. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin 3-cü kurs tələbəsi, Türkiyə vətəndaşı ***Gülhan Boran*** ilə əl əməyi, göz nurundan ərsəyə gələn bəzək əşyaları seçib alarkən həmsöhbət olduq. O dedi ki, burada çox gözəl və diqqətçəkən yaradıcılıq nümunələri var. Adi bir kağız və ya odun parçasından zövqləri oxşayan xeyli sənət əsəri ortaya çıxıb. Toxuculuq nümunələri, muncuqlardan yaradılan əl işləri, deyərdim ki, birisinə bağışlanacaq ən dəyərli hədiyyələrdir. Bu əl işlərinə heyranlıqla baxmamaq mümkün deyil. Mənim burada diqqətimi çəkən çoxlu sənət əsəri var. Sözün düzü, hansından alım, seçim edə bilmirəm.

Digər alıcı ***Zəminə Haqverdiyeva*** Bakı şəhər sakinidir. Naxçıvana Duzdağ Fizioterapiya Mərkəzində müalicə almaq üçün gəlib. Deyir, iki həftədir ki, buradayam. Vaxt tapan kimi Naxçıvanın gəzməli-görməli yerlərində oluram. Bu gün isə Batabat yaylağını gəzmək qərarına gəldim. Burada olarkən sərgi-satışın keçirildiyini öyrəndim. Bu, çox maraqlı layihədir. Sərgiylə tanışlıq zamanı müşahidə etdim ki, burada nümayiş etdirilən əl işlərində istedadlı xanımlar daha çox xalq yaradıcılığını, folklor ənənələrini təbliğ edirlər. Buradakı xalça və toxuculuq nümunələri, ağac üzərində oyma əsərləri, rəngarəng suvenirlərin üzərindəki naxışlar milli adət-ənənələrimizi, xalqımızın məişətini təcəssüm etdirir. Sərgidə biçmə, toxuma, tikmə, milli geyimlər, xalçaçılıq, yağlı boya ilə çəkilmiş rəsm əsərləri, milli üslubda bəzədilmiş suvenirlər, güllərdən hazırlanan kompozisiyalar, muncuq və digər bəzək əşyaları qadınların yüksək yaradıcılıq potensialı və incə zövqlərindən xəbər verir. Toxuma-tikmə nümunələri, təbii daş-qaşlardan hazırlanan bəzək əşyaları ilk baxışdan diqqəti cəlb edir.

*Bəli, keçirilən sərgi-satışlar bir daha təsdiq edir ki, muxtar respublikada bacarıq və qabiliyyəti ilə seçilən qadınlarımız çoxdur. Onların istedadı xalqımızın soykökü, genetik xüsusiyyətləri ilə bağlıdır. Bu gün muxtar respublika qadınları xalqımıza xas adət-ənənələrin, qədim el sənətinin qorunub saxlanması və təbliğinə öz layiqli töhfələrini verirlər. Müvafiq sahədə həyata keçirilən belə tədbirlər qadınların cəmiyyətin bütün sahələrində, ölkənin idarəçilik sistemində və inkişafında yaxından iştirak etmələri üçün gələcəkdə daha da uğurlu nəticələrin əldə olunmasına öz təsirini əhəmiyyətli dərəcədə göstərəcəkdir. Dövlətin qayğısını daim üzərlərində hiss edən zərif cinsin nümayəndələri muxtar respublikanın ictimai həyatında fəal iştirak edir, sosial-iqtisadi və mədəni inkişafa layiqli töhfələr verirlər.*

**✍ Gülcamal TAHİROVA**

## Xüsusi qayğıya ehtiyacı olan ailələrin uşaqları üçün ekskursiya təşkil olunub

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə uşaqlar üçün ekskursiya təşkil edilib. Məqsəd tətil günlərində uşaqların asudə vaxtlarının səmərəli keçirilməsidir. Ekskursiyada şəhid övladları, valideyn himayəsindən məhrum uşaqlar və xüsusi qayğıya ehtiyacı olan ailələrin uşaqları iştirak edib.

Uşaqlar ilk olaraq Heydər Əliyev Muzeyi ilə tanış oldular. Muzeylə tanışlıqdan sonra ekskursiya çərçivəsində növbəti ünvan Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyi olub. Ekskursiya zamanı uşaqlara muzey haqqında məlumat verilib. Bildirilib ki, 98 eksponatla fəaliyyətə başlayan muzeyin hazırda eksponat sayı 19 mindən çoxdur. Qeyd olunub ki, muzeyin fondunda çoxəsrlik Azərbaycan ədəbiyyatı tarixini əks



etdirən qiymətli əlyazmalar, tətbiqi və təsviri sənət nümunələri, kitablar, qəzet və jurnallar, xatirə əşyaları və digər muzey materialları mühafizə olunur.

"Saat Meydanı" Turistik İstirahət Mərkəzinə yollanan uşaqlar müəyyən olunmuş xətt üzrə şəhər gəzintisinə çıxarılıblar. Sonra mərkəzdə onlar üçün animasiya cizgi filmi nümayiş olunub, uşaqlara nahar yeməyi təşkil edilib. Tədbirin sonunda uşaqlar üçün əyləncəli oyunlar keçirilib.

Ekskursiya uşaqlarda xoş təəssürat yaradıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Uğurlu yol, Sabrina!




Sabrina Gültəkin 9-cu sinfi bu tədris ilində müvəffəqiyyətlə bitirmişdir. Ancaq İlahi ona dərs oxumaqdan başqa, bir də bədii istedad vermişdir. Bu vaxta qədər, Sabrina artıq bir neçə kitab müəllifi olmuşdur. "Mənim anam bir mələkdir", "Mahnın da, adın da dastana döndü", "Şəhid Vüsalın dastanı", "Mənim doğma Naxçıvanım" kitabları son iki ildə çap edilib. Yaxın zamanlarda o, "Qurtuluş" adlı kitabı ilə oxucularının görüşünə gəlib. Bu poemada Sabrina respublikamızda gedən sürətli quruculuq, ulu öndərimiz Heydər Əliyev şəxsiyyətinin ucalığı və nəhayət, İkinci Qarabağ savaşındakı uğurumuz barədə bədii sözün gücü ilə oxucularla "söhbətləşir". Şuşanı ziyarət edərək bu poemanı Şuşada söyləmək onun ən böyük arzusudur.

Sabrinanın əvvəlki şeirləri kimi, "Qurtuluş" poeması da qələbəmizə, haqq işimizə inamla süslənmişdir və asan oxunur. Onun poetik dili aydın və rəvandır.

Sabrina bədii söz məkanında yenidir, gəncdir. Ona nə arzu edərdim? Sabrina orta məktəbi qurtarmalı və ali məktəbdə təhsilini davam etdirməli, Vətənimiz, xalqımız üçün layiqli bir vətəndaş olmalıdır. Və özünütəhsilin bir yolu da mütaliədən keçir. Sabrina klassik ədəbiyyatı, söz korifeylərini, ustad sənətkarları mütalia etməklə poeziya yollarında püxtələşəcək.

"Şərur ədəbi birliyi"ndə onu görəndə, çoxillik müəllimlik təcrübəmlə müəyyən etdim ki, Sabrina təmkinli və duyumlu olduğu qədər də daxilən zəngin bir yeniyetmədir. Belə gənclərə qayğı göstərməli, ona poeziyanın qayda-qanunlarını mənimsəməkdə həyan durmalıyıq. Onun artıq belə bir qayğı ilə yüksək səviyyədə əhatə olunması diyarımızda istedadlı gənclərə verilən yüksək dəyərin təzahürüdür.

İnanıram ki, bu istedadlı qız gələcəkdə də poetik nümunələri ilə bizi sevindirəcəkdir.

*Uğurlu yol, Sabrina!*

**Seyfəddin EYVAZOV**
***"Şərur ədəbi birliyi"nin rəhbəri, filologiya üzrə fəlsəfə doktoru***

## İcra nümayəndələri üçün maarifləndirici tədbir keçirilib



Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə Şahbuz şəhərində "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatının və notariat hərəkətlərinin aparılmasında qanunvericiliyin tələbləri" mövzusunda növbəti maarifləndirici seminar təşkil edilib. Seminarda nazirliyin əməkdaşlarının "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatının aparılmasında qanunvericiliyin tələbləri", "Ailədə uşaqların hüquqları, ad hüququ, adın, soyadın və ata adının verilməsi və dəyişdirilməsi qaydası" və "İnzibati ərazi dairəsi üzrə nümayəndəliklərdə notariat hərəkətlərinin aparılmasında qanunvericiliyin tələbləri" barədə çıxışları dinlənilib.

Sonda müzakirələr aparılıb.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

*Azərbaycan xalqının yeni tarixi prinsip etibarilə ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin bir nidası ilə başlayır: **"Qarabağ Azərbaycandır!"** Qarabağ deyəndə isə bir çox böyük şəxsiyyətlərin Vətən uğrunda mücadiləsi, mübarizələrlə dolu tərcümeyi-halları göz önünə gəlir. Artıq əsr yarımdan çox bir müddətdir ki, estetik təfəkkürümüzdə Xurşidbanu Natəvan adlı fenomenal bir şəxsiyyət yer almaqdadır. Xüsusən də müstəqillik dövrü Azərbaycan rəssamlıq sənətində Qarabağ mövzusuna, eləcə də Xurşidbanu Natəvan mövzusuna müraciət edilməsi ənənə halını almışdır və bu da təsadüfi deyildir. Əslində, Qarabağ deyəndə, ilk növbədə, yada düşən şəxsiyyətlərdən biri də Qarabağın sonuncu hakimi Mehdiqulu xanın qızı, taleyi çar tərəfindən müəyyənləşdirilən Xurşidbanu Natəvandır. Müstəqillik dövrü Azərbaycan rəssamlığı sənətində də Xurşidbanu Natəvan mövzusuna dönə-dönə müraciət olunduğunu görürük.*

2022-ci il "Şuşa ili"dir

# Milli estetik təfəkkürdə Xurşidbanu Natəvan obrazı

## *Tariximizdə müstəsna yeri olan görkəmli şairə Azərbaycan təsviri incəsənətinin mərdanəlik simvoluna çevrilib*





Xeyirxah əməlləri və nəcibliyi ilə xalq içində çox böyük hörmət qazanmış, "Xan qızı" adı ilə tanınan görkəmli Azərbaycan şairəsi həm də çox incə dərin zövqə malik rəssam və bədii tikmə ustası olmuşdur. Rəssamlıq fəaliyyəti ilə poetik yaradıcılığı vəhdət təşkil edən Natəvanın bizim dövrə gəlib çatmış yaradıcılıq irsi bir o qədər çox olmasa da, onun Azərbaycan incəsənətini yeni bədii çalarlarla zənginləşdirən sənət əsərləri kimi qəbul olunur. Xurşidbanu Natəvanın Qafqazda, o cümlədən Bakıda səfərdə olmuş böyük fransız yazıçısı Aleksandr Dümaya özünün heyrətamiz tikmələrini bağışladığı faktı da mövcuddur.

Görkəmli şairənin rəssamlıq qabiliyyəti bir neçə cəhətdən diqqəti cəlb etməkdədir. Xüsusilə vurğulamaq lazımdır ki, onun ərsəyə gətirdiyi qrafik əsərlər XIX əsr Azərbaycan təsviri sənətinin inkişaf tarixini özünəməxsus bədii xüsusiyyətlərlə yeniləşdirmək baxımından mühüm əhəmiyyətə malikdir. Bir cəhəti xüsusilə diqqət önünə çəkmək lazımdır ki, orta əsrlərdə intibah mərhələsini yaşayan Azərbaycan miniatür rəssamlığı tədricən yeni ənənələrlə zənginləşməyə başlamışdı. Bu mühüm prosesdə Naxçıvan və Şuşa rəssamlıq məktəbi nümayəndələrinin çox böyük rol oynadıqlarını xüsusilə vurğulamağı özümüzə borc bilirik. Əgər mədəniyyət paytaxtımız Şuşada cərəyan edən bədii proseslərə nəzər yetirsək, onda rəssamlığın müxtəlif sahələrində Mir Möhsün Nəvvab, Usta Qəmbər Qarabaği ilə yanaşı, Xurşidbanu Natəvanın da səmərəli fəaliyyət göstərdiyini qeyd etmək yerinə düşər. Onun ərsəyə gətirdiyi rəsm əsərləri bədii həllinə görə o dövrdə yaradılan təsviri sənət nümunələri arasında özünəməxsus yaradıcılıq tərzi və manerası ilə seçilir.

Qeyd etdiyimiz kimi, sevimli şairəmizin bədii yaradıcılığı həm də çoxəsrlik tarixə malik Azərbaycan təsviri sənətinin yeni bədii-estetik zövqlə yeniləşməsinə xidmət edir. Xurşidbanu Natəvanın möhtəşəm yaradıcılıq irsinin özündə, bütövlüklə, ənənə və müasirliyi birləşdirdiyini əyani şəkildə görürük.

Xurşidbanu Natəvanın rəsm əsərləri, eyni zamanda bədii şərhinə görə kifayət qədər realdır. Azərbaycan poeziyasında dərin iz saldığını bənzərsiz qəzəlləri ilə özünü təsdiqləyən şairə o vaxta qədərki, milli təsviri sənətimizdə yer almış əfsanəvi obrazlar dünyasına yeni simalar gətirmək baxımından olduqca mühüm əhəmiyyətə malikdir. Onun bədii yaradıcılıq nümunələri arasında tarixi əhəmiyyətə malik digər rəsmlər də



mövcuddur. Bunların arasında məşhur Şeyx Şamilin evinin və Qunib qalasının rəsmi diqqət çəkir.



Tanınmış şairənin Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində qorunan dörd rəsm əsəri özünün ifadəli görünüşünə və incə bədii duyumuna görə olduqca maraq doğurur. İncə zövqlü qadın olan Natəvanın muncuqlu tikmə üsulunda gözoxşayan tikmələrinin bəziləri vaxtilə dövlət muzeyləri üçün alınıb. Məişətdə istifadəsi nəzərdə tutulan həmin tikmələr Milli Azərbaycan Tarixi və Milli Azərbaycan İncəsənəti muzeylərində mühafizə olunmaqdadır. Xüsusilə vurğulamaq lazımdır ki, muncuqlarla bəzədilmiş belə nəfis tikmələrdən birini Natəvanın həyat yoldaşı Xasay xan Usmiyev 1858-ci ildə Bakıya gəlmiş böyük fransız yazıçısı Aleksandr Düma ilə görüşündən sonra qonağa hədiyyə edib.

Qeyd etmək yerinə düşər ki, Xurşidbanu Natəvan obrazı Azərbaycan təsviri incəsənətində rəssam və heykəltəraşların yaradıcılığında da özünü bir çox məqamlarda parlaq şəkildə göstərmişdir. Bu sırada Azərbaycan heykəltəraşlığının görkəmli nümayəndələrindən biri, Xalq rəssamı, akademik Ömər Eldarovun, heykəltəraş İmran Mehdiyevin, Azərbaycan Respublikasının Xalq rəssamı Oqtay Sadıqzadənin, Azərbaycan Respublikasının Xalq rəssamı Altay Hacıyevin adlarını çəkmək yerinə düşər. Bu rəssam və heykəltəraşlar Xurşidbanu Natəvanın yaddaqalan obrazlar qalereyasını yaratmışlar.

Xurşidbanu Natəvanın ən maraqlı obrazlarından birini Xalq rəssamı, heykəltəraş Ömər Eldarov yaratmışdır. Bu əsərdə sənətkarın əvvəlki əsərlərinin heç birinə bənzəməyən orijinallıq və məna çalarlığı ilə seçilən cəhətlər çoxdur. Heykəltəraş çətin bir işin öhdəsindən gələrək, müsəlman qadınlarına xas olan xüsusiyyətləri gözəl, lirik şairə obrazında birləşdirərək təsvir etməyi bacarmışdır. Düşüncəli Şərq qadınını təcəssüm etdirən heykəlin hər bir cizgisi – paltarının qırışlarından tutmuş kəlağayısınadək,



əlindəki qələmdən barmaqlarının vəziyyətinə qədər hər şey onu yaradıcı bir obraz, nəcib insan, milli xüsusiyyətlərə malik bir qadın kimi gözlərimizin önündə canlandırır.

Xurşidbanu Natəvan obrazına müraciət edənlərdən biri də istedadlı heykəltəraş İmran Mehdiyevdir. Onun ən uğurlu işlərindən biri məhz Azərbaycanın görkəmli şairəsi Xurşidbanu Natəvanın heykəlidir. Zəngin geyinmiş Xan qızının oturmuş vəziyyətdə hazırlanmış fiquru plastik həllinə və incəliklərinə görə fərqlənir. Müəllif bürüncdən hazırladığı bu heykəldə el arasında böyük nüfuz sahibi olan şairənin lirik-psixoloji tutumlu, yaddaqalan obrazını yaratmışdır. Əsərdə Natəvanın düşüncəli və qəmli görkəmi onun həyatının təzadlı, ağrılı-acılı keçdiyinə bədii işarə kimi qəbul olunur. Gənc heykəltəraşın bu dəyərli sənət nümunəsi Belçikanın Waterloo şəhərindəki parkda ucaldılıb.



Xalq rəssamı Oqtay Sadıqzadə də Xurşidbanu Natəvan obrazına



müraciət edən rəssamlarımız arasında xüsusilə seçilməkdədir. Rəssam görkəmli şairə Xurşidbanu Natəvanın portretini 1983-cü ildə yaratmışdır. Təmtəraqlı planda düşünülmüş portretdə rəssam təbii və sərbəst vəziyyətdə oturmuş Natəvanı olduqca real təsvir etməyi bacarmışdır. Obrazın üzündə zərif, incə hisslər özünü büruzə verir, üzün cizgiləri və paltarının qollarındakı haşiyənin naxışları ilə bəzənmiş əllərin zərif cizgiləri tamaşaçını valeh edir. Xurşidbanu Natəvanın baş örtüyü, geyimi, xalı və digər detallar portretə xas olan milli koloriti daha da gücləndirir. Model bir əlini üzünə söykəmiş, digər əlində isə bir qızılgül tutaraq təsvir edilmişdir. Masanın üzərində isə şairənin şeirlər kitabı görünür. Rəssam obrazını onun yaradıcılıq fəaliyyəti ilə uyğun şəkildə təsvir etməyi bacarmışdır. Şairənin mavi gözləri, bir qədər soyuq və sakit siması onun geyiminin mavi-gümüşü rənginə, rəngarəng qırçınlarına, çiyninə salınmış tirmə şalın isti rənglərinə olduqca uyğundur. Rəssam burada müasir dövrün ideallarına sadiq qalan poetik, romantik obraz yarada bilmişdir. Xüsusilə vurğulamalıyıq ki, şairənin bu portreti sırf rəssam təxəyyülünün məhsulu deyil. Natəvanın XIX əsrdən qalma yeganə fotoşəkli zəmanəmizədək gəlib çatmışdır. Oqtay Sadıqzadə Natəvanın ən xarakterik cizgilərini həmin fotodan götürərək, öz düşüncələrini, baxışlarını əlavə edərək yeni bir kompozisiya yaratmışdır.

Xalq rəssamı Altay Hacıyevin yaradıcılığında da Xurşidbanu Natəvan mövzusu öz zəngin bədii həllini tapmışdır. İncəlik rəmzi olan bu xanımın zəngin daxili aləmini yeni-yeni rəng çalarları ilə açmağa çalışan rəssam Natəvana həsr etdiyi portretində şairənin kövrək, həssas duyğularından, şairanə dünyasından, könül çırpıntılarından xəbər verir. Altay Hacıyevin yaradıcılığında bu obraz olduqca tutumlu, öz parlaq bədii əksini tapmışdır.

Xan qızı Natəvanın şəxsiyyətini, ictimai fəaliyyətini xalqımız və dövlətimiz həmişə yüksək qiymətləndirmiş, onun adı daim əbədiləşdirilmişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin 2022-ci il 14 mart tarixdə Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi ilə bağlı Sərəncamında deyildiyi kimi: *"Bu gün Natəvanın Şuşada yenidən ucalan və möhtəşəm Zəfərimizin təntənəsini nümayiş etdirən büstü, eyni zamanda xalqımızın milli mədəni irsə qayğısının rəmzi və mənəvi dəyərlərə ehtiramının təzahürüdür".*

Hesab edirik ki, bundan sonra da Xurşidbanu Natəvanın bənzərsiz yaradıcılığını və ona həsr edilmiş sənət əsərləri daha da artacaq, Xan qızının böyük yaradıcılıq irsi yeniyeni tədqiqat əsərlərində sənətşünaslıq elmi müstəvisində təhlilə cəlb olunacaqdır.

**Toğrul CƏFƏRLİ**
***Naxçıvan Dövlət Universitetinin Təsviri incəsənət kafedrasının müəllimi***

# Maarifləndirici tədbirlər davam etdirilir



*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin təşkilatçılığı ilə əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri qəbul edən, onlara xidmət göstərən tərəflərlə "Elektron müraciət qaydaları" mövzusunda maarifləndirici görüş keçirilib.*

Tədbirin məqsəd və əhəmiyyəti barədə məlumat verən xidmətin əməkdaşı Kənan Məmmədov diqqətə çatdırıb ki, bu gün yeni inkişaf mərhələsinə qədəm qoyan muxtar respublikada çoxşaxəli iqtisadiyyatın formalaşdırılması, yeni iş yerlərinin, xidmət sahələrinin yaradılması, eyni zamanda turizm sektorunun kompleks və davamlı inkişafı, nəticə etibarilə, əcnəbilərin diyarımıza olan marağını və müxtəlif məqsədlərlə səfər etmək niyyətini daha da artırmaqdadır. Nəzərə almaq lazımdır ki, əcnəbi və vətəndaşlığı olmayan şəxslər ölkəyə gəldiyi zaman muxtar respublika ərazisində, əsasən, mehmanxanalara, tələbə yataqxanalarına və digər yaşayış obyektlərinə üz tuturlar.

Xidmətin digər əməkdaşı Qiyas Paşayev olduğu yer üzrə qeydiyyatla bağlı elektron müraciət qaydaları mövzusuna toxunaraq slayd vasitəsilə tədbir iştirakçılarına ətraflı məlumat verib. Vurğulanıb ki, Dövlət Miqrasiya Xidməti tərəfindən innovativ yeniliklərin tətbiqi, elektron xidmətlərin sayının və keyfiyyətinin artırılması, habelə mövcud xidmətlərdən istifadənin daha da sadələşdirilməsi daim diqqətdə saxlanılır. Bu baxımdan elektron müraciətlərin qəbulu və cavablandırılması işinin intensiv şəkildə həyata keçirilməsi sahəsində "202 – Miqrasiya Məlumat Mərkəzi"nin, xidmətin rəsmi saytının və sosial şəbəkə hesablarının rolu müstəsna əhəmiyyət kəsb etməkdədir.

Sonda suallar ətraflı cavablandırılıb, bukletlər təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

### *İtmişdir*

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Əhmədov Sirac Nəsib oğlunun adına olan AD-N-0015204 nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Babək rayon Qoşadizə kənd sakini Əhmədov Ramil Novruzəli oğlunun adına olan JN-128 inventar nömrəli, 10307018 kodlu torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 744